# Hər dərdə dəva

(Əvvəli 5-ci səhifədə).

bu kənddə arıların hasilə gətirdiyi bal dadına görə seçilir. Ələlxüsus balın hasilə yetməsi üçün peşəkarlığından lazımi qaydada və vicdanla istifadə edənlərin məhsulu təqdirəlayiq olur.

Bal məhsullarından fikrimizcə hər kəs istifadə edir, əlbəttə öz imkanı daxilində. Bir neçə arıçılıq təsərrüfatı ilə məşğul olanların məhsulundan dəfələrlə istifadə etmişdik. Ancaq bədii söz adamı, qiraətçi kimi tanıdığımız Anar Məmmədovun arıçılıq təsərrüfatının məhsulundan daddıqdan sonra artıq uzun müddətdir ki, daddığımız baldan istifadə edirik. Keyfiyyətcə fərqli olan bu balla bərabər Anar Məmmədovun əlavə hədiyyələr etməsi də hər kəsdə maraq doğurur.

Onun peşəkarlığı və hasilə yetirliyi məhsulun keyfiyyəti haqda oxucularımızı da tanış etmək istədik. Anar Məmmədov yay mövsümündə möcüzəli və sehrli «həşəratları» güllərin müxtəlif və bol olduğu sahələrə daşıyır. Axı o bilir ki, balın keyfiyyəti arının təbiətin gözəlliklərindən bol istifadə etməsindən asılıdır.

Anar Məmmədov kimdir? O, rayonumuzun Məmmədağalı kəndində 1980-ci ilin noyabrında doğulmuşdur. 1987 - 1996-cı illərdə doğulduğu kənddə natamam orta təhsil almış, 1996 - 1998-ci illərdə isə Vəndam 1 saylı orta məktəbində orta təhsilini başa vurmuşdur. 1999 - 2000-ci illərdə həqiqi hərbi xidmətdə olmuşdur. Əsgəri xidmətdən sonra öz kəndinə qayıtmış, arıçılıqla məşğul olan ailəsinə kömək etmişdir. Onu da qeyd edək ki, Anar hələ kiçik yaşlarından ailəsinin məşğul oduğu arıçılığa həvəs göstərir və bu maraqlı sənətə həm hobbi kimi baxır, həm də gələcək baba sənətini davam etdirmək arzusu ilə yaşayırdı. Axı onun babası Qafar kişi 1957-ci ildən arıçılıqla məşğul olmuş, sonralar isə Ananın ata-anası da bu peşənin davamçıları olmuşlar.

Bir sözlə, arıçı ailəsində dünyaya göz açan bu gənc peşəsinin peşəkarı olmaq üçün təcrübə ilə bərabər Rusiyadan və Türkiyədən gətirilən arıçılıq təsərrüfatı haqqında kitablar oxuyaraq bilik və bacarığını artırmağa çalışırdı.

2014-cü ildən respublikamızda arıçılıqla bağlı keçirilən hər bir konfrans və seminarlarda iştirak etmişdir.

2016-cı ildə Azərbaycanda arıçılar assosiasiyası yaradılmışdır. Həmin ilin oktyabr ayından Anar Məmmədov həmin assosiasiyanın Qəbələ rayonu üzrə rəhbəri seçilmişdir. 2016-cı ildən etibarən o, başqa ölkələrdə - o cümlədən Rusiyada, Türkiyədə, İranda, Gürcüstanda keçirilən arıçılıq üzrə kənd təsərrüfatı tədbirlərində iştirak etmişdir, həmçinin iş təcrübəsini artırmaq və daha çox öyrənmək üçün tədbirlərdə iştirakçılığını davam etdirir.

2018-ci ildə Anar Məmmədov İsmayıllı Rayon Peşə Təhsili Mərkəzində arıçılıq qrupunda bir illik təhsil almışdır. O, 2023-cü ildən etibarən Qəbələ Rayon Peşə Təhsili Mərkəzində arıçılıq peşəsini tədris edir. O, peşə məktəbinin tələbələrinə öz peşəsini sevə-sevə öyrədir.

Anar Məmmədovla söhbət zamanı öyrəndik ki, iştirakçısı olduğu bal məhsulu yarışmalarında - həm ölkədaxili, həm də başqa ölkələrdə iki dəfə I yeri, iki dəfə II yeri, bir dəfə IV yeri, bir dəfə III yeri, Türkiyədə keçirilən yarışmada ikinci yeri, Dağıstanda keçirilən Ümumrusiya arıçılarının forumunda II yeri tutmuşdur.

Bu yaxınlarda - 2024-cü ilin oktyabr ayında Moskva şəhərində keçirilən arıçılıq məhsulları forumunda iştirak etmiş və III yeri tutmuşdur.

Ümumiyyətlə, Anar Məmmədov iştirak etdiyi hər bir tədbirdə mükafat qazanmışdır.

**Ən böyük mükafat**

İnsan müxtəlif titullar, fəxri adlar qazana bilər, əməlinə və fəaliyyətinə görə. Ancaq bəzən yaşadığımız zaman kəsiyində bu fərqləndirici adlar öz həqiqi ünvanına çatdırılmır, istedadlar kölgədə qala bilir. Ancaq hər kəs öz əməlinə, fəaliyyətinə görə daha çox çoxluğun etimadını qazana bilirsə, xalq o işi bəyənirsə, bu alqışa layiqdir. Ətrafındakıların reklam xatirinə deyil, həqiqi mənada bəyəndiyi və qiymət verdiyi hər iş, hər əməl təqdirəlayiqdir. İnsan üçün elə ən böyük mükafat da budur!

Anar Məmmədovun arıçılıq təsərrüfatının məhsulları əgər ləziz bal kimi qiymətləndirilirsə, demək bun onun ən böyük mükafatıdır!

Uğurlarınız bol olsun, sənətinin peşəkarı!

**Bibixanım İSAYEVA.**

# Ağacəkmə aksiyası

"Yaşıl Dünya Naminə Həmrəylik ili" ilə əlaqədar ağacəkmə aksiyası keçirilmişdir. Aksiyada rayon icra hakimiyyətinin, 15 saylı Regional Meşə Təsərrüfatı Mərkəzinin əməkdaşları, sahibkarlar, könüllülər və ictimaiyyət nümayəndələri tərəfindən Qəbələ rayonu ərazisində magistral yolların kənarında 4 hektar sahəyə 6000 ədəd müxtəlif növlərdən olan ağaclar əkilmişdir.



# Yanğın təhlükəsizliyi qaydaları payız-qış mövsümündə

Yanğınların statistikası göstərir ki, payız-qış mövsümündə havaların soyuması, insanların istilik sisteminə tələbatlarının yaranması və bu məqsədlə elektrik və qaz təsərrüfatından daha çox istifadə etməsi nəticəsində yanğınların sayı yazyay dövrü ilə müqayisədə artır.

Payız-qış mövsümünün başlanması ilə əlaqədar hər il Dövlət Yanğın Nəzarəti Xidmətinin əməkdaşları yanğınların və insan tələfatının qarşısını almaq məqsədilə təbliğat xarakterli tədbirlər həyata keçirirlər.

Yanğınların təhlilinin nəticəsi göstərir ki, mənzillərdə yanğınların baş verməsinin əsas səbəbi elektrik və qaz cihaz və qurğularının quraşdırılması və istismarı zamanı yanğın təhlükəsizliyi qaydalarının pozulması, odla və qaynaq vasitəsilə işlər görülərkən ehtiyatsızlıq, uşaqların odla dəcəlliyi və s. olmuşdur. Ona görə də respublika ərazisində payız-qış mövsümündə havaların soyumasını nəzərə alaraq, yanğınların baş verməsinə şərait yaradan amillərin aradan qaldırılması istiqamətində qabaqlayıcı tədbirlərin gücləndirilməsi məqsədilə yaşayış binalarında sakinlər arasında maarifləndirmə işləri aparılmış, açıq alovdan, yeni şam və məşəldən istifadənin, sobanın üzərində və yanında paltar qurudulmasının, kustar üsulla düzəldilmiş elektrik və ya qaz cihazlarından istifadənin, bacaların yaxınlığındakı çardaqlarda asan alışan maye və maddələrin, məişət qaz balonlarının saxlanılmasının, nasaz cihazların istismarının, uşaqların odla dəcəlliyinin real yanğın təhlükəsi yaratdığı əhalinin nəzərinə çatdırılmışdır. Eyni zamanda bu məqsədlə sakinlərə Xidmət tərəfindən hazırlanmış, yanğın təhlükəsizliyi qaydalarını ehtiva edən - "Vətəndaşların nəzərinə" adlı yaddaş vərəqələrinin paylanması, binaların lift kabinələrinə "Mənzildə yanğın zamanı davranış qaydaları" adlı stikerlər yerləşdirilməsi təmin edilmişdir. Bu işə icra hakimiyyətlərinin mənzil-kommunal istismar sahələrinin, qaz və elektrik enerjisinin istismarı idarələrinin, bələdiyyələrin nümayəndələri də cəlb edilmişdir.

Əhali ilə görüşlərdə yanğına qarşı təbliğat apararkən onların nəzərinə çatdırılmalıdır ki, yaşayış binalarının bloklarında və mərtəbələrində quraşdırılmış paylayıcı elektrik lövhələrinin "Elektrik qurğularının quraşdırılması qaydaları"nın və "Yanğın təhlükəsizliyi qaydaları"nın tələblərinə uyğun olaraq istismar edilməsinə, elektrik lövhələrində yalnız standarta uyğun elektrik qoruyuculardan istifadə olunmasına diqqət yetirilməlidir. Həmçinin çardaqların daim təmiz saxlanılması, taxta konstruktiv elementlərinin odadavamlı məhlulla hopdurulması, mövcud pəncərələrin şüşələnməsi, çardağa çıxış qapılarının, eləcə də yanğına qarşı divarlarda və ventilyasiya kameralarında quraşdırılmış qapıların kip vəziyyətdə, bağlı olması təmin edilməlidir. Yaşayış binalarının zirzəmiləri daim təmiz saxlanılmalı, giriş qapıları bağlı vəziyyətdə olmalı və açarlar birinci mərtəbədə yerləşən mənzillərdən birində və yaxud komendatda olmalıdır.

Yaşayış binalarının birinci mərtəbəsində layihə üzrə nəzərdə tutulmuş yanğın keçidlərinin açıq vəziyyətdə saxlanılmasına, başqa məqsədlər üçün istifadə edilməməsinə daim diqqət yetirilməlidir. Keçidlərin tutulmasına imkan verilməməlidir.

Yaşayış evlərində elektrik və qaz cihazlarının təhlükəsiz istifadə olunmasına, tüstü boru və bacaların düzgün quraşdırılmasına, təmizlənməsinə fikir verilməlidir. Yaşayış binalarının birinci mərtəbəsində, zirzəmisində asan alışan və yanar mayelərin saxlanılması, təxliyə yolları hesab edilən pilləkən qəfəslərində və dəhlizlərdə əl damlarının yaradılması, eləcə də pilləkən marşları altında və onların meydançalarında əşyaların yığılması qadağandır.

Hündürmərtəbəli yaşayış binalarının mərtəbələrində yanğına qarşı daxili yanğın su kranlarını şlanqlarla, birləşdirici başlıq və lülələrlə təchizini, su təzyiqini qaldırmaq üçün nəzərdə tutulmuş nasosların, avtomatik yanğın xəbərverici siqnalizasiya və yanğınsöndürmə qurğularının, tüstü xaricetmə və ventillyasiya sistemlərinin işlək vəziyyətdə olması təmin edilməlidir.

Qəsəbə və kənd yaşayış məntəqələrində, fərdi həyətyanı sahələrdə də quru otların daşınması, yığılması, sobalardan istifadə zamanı yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət olunmasına da ciddi diqqət yetirilməlidir. Bütün bunlar isə əlbəttə ki, mənzillərdə, fərdi yaşayış sahələrində yanğınların baş verməməsinə və hadisə zamanı insan itkisinin qarşısının alınmasına xidmət edir.

Yanğınların baş verməməsi üçün hər bir vətəndaş yanğın təhlükəsizliyi qaydalarını bilməli və onlara əməl etməlidir!

**Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidməti.**




QƏBƏLƏ

qəzetinə

2025-ci ilin birinci yarısı üçün abunə yazılışına başlanmışdır.

Yarımillik abunə qiyməti 20 manatdır.

*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*

*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 318-90-24.


## İTMİŞDİR

Qəbələ rayon Hacıalılı kənd sakini **Alıyev Alıxan Müşviq oğluna** məxsus 07.02.2017-ci il tarixdə gizir və MAXE-lərə verilən hərbi qulluqçunun **DQ № 015387 nömrəli şəxsi vəsiqəsi itdiyi üçün** etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

«Qəbələ» qəzetinin kollektivi qəzetin redaktoru **Azad Məmmədova** qardaşı

**FƏXRƏDDİNİN**

vəfatı ilə əlaqədar kədərləndiyini bildirir və dərin hüznlə başsağlıtı verir.


Redaktor
Azad Məmmədov.

*TƏSİSÇİ:*
Redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: gabalanews@mail.ru

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində "Azərmedia" MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
*Tiraj 1050*